BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2014*

UOT 94 "04/15"

# XVI ƏSRDƏ HİND OKEANI UĞRUNDA OSMANLI - PORTUQALİYA RƏQABƏTİ

**N.B.MƏMMƏDOVA**
***Bakı Dövlət Unviersiteti***
***nazile.mamedova@gmail.com***

*XVI əsrdə Hind okeanı bölgəsi uğrunda mübarizə aparan əsas tərəflər Osmanlı imperiyası və Portuqaliya idi. Portuqaliyanın burada möhkəmlənməsi hələ XV əsrin sonunda baş vermişdi, Osmanlılar isə 1517-ci ildə Misiri ələ keçirdikdən sonra Qırmızı dəniz vasitəsilə Hind okeanına çıxış əldə etmək üçün mübarizələrində Portuqaliyanın ciddi rəqabəti ilə qarşılaşmışdılar.*

*Hind okeanı bölgəsi uğrunda Osmanlı-Portuqaliya rəqabəti çərçivəsinə Səfəvilər dövləti, Moğol imperiyası və Venesiya respublikası da qatılmışdı. Bütün XVI əsr ərzində bu rəqabət qanlı müharibələr və diplomatik qarşıdurmalarla müşayiət olunmuşdur.*

**Açar sözlər:** Hind okeanı, Hörmüz, Osmanlılar, Portuqaliya, müstəmləkəçilik

Osmanlı imperiyasının Hind okeanı bölgəsində başlıca problemi portuqalların burada güclənməsi və Şərqlə ticarəti Qırmızı dəniz və İran körfəzindən Ümid Burnuna keçirmələri cəhdi idi. Üstəlik, portuqallar Osmanlı ticarətinə də müdaxilə etməkdən çəkinmirdilər. İran körfəzinə çıxışda yerləşən Hörmüzün və Qırmızı dənizin çıxışında yerləşən Ədənin ələ keçirilməsi portuqalları Osmanlılardan üstün etmişdi. Bundan əlavə, portuqallar Tunisi də tutmaq niyyətində idilər.

Bombeydəki limana əsaslı baxış keçiriləndən sonra 1531-ci ilin əvvəllərində bu donanma qubernator Nunu da Kunyanın rəhbərliyi ilə Damanı ələ keçirdi və Diuya yaxınlaşdı. 16 fevral 1531-ci ildə Diuya hücum başladı, lakin şəhəri almaq mümkün olmadı və martın 1-də portuqallar mühasirəni dayandırdılar (10, 194).

1534-cü ildə Lissabondan daha iki eskadra göndərildi: onlardan biri 1500 nəfərlik heyəti olan 12 gəmidən, digəri isə - Alfonsu de Souzanın rəhbərliyi altında 5 gəmidən ibarət idi. Hindistanda olan digər gəmilərlə öz donanmasını birləşdirən de Souza Damana istiqamət götürdü. Şəhər və şəhərin donanması portuqallar tərəfindən darmadağın edildi, şəhərin müdafiəçilərinin demək olar ki, hamısı məhv edildi (10, 194).

Bu hadisədən sonra Kambeyin sultanı Bahadur-şah (1529-1537) sülh

istədi və buna qarşılıq olaraq Nunu da Kunya öz tələblərini irəli sürdü:

- sultanın asılılığında olan torpaqlar həmişəlik Portuqaliya kralının mülkiyyəti elan edilirdi;
- Portuqal hakimiyyətinin icazəsi olmadan heç bir gəmi Kambeydən Qırmızı dənizə üzə bilməz;
- bütün gəmilər portuqallara gömrük ödəməli idi;
- Kambeydə hərbi donanma saxlamaq olmazdı (8, 176).

Moğol imperatoru Humayunla müharibədə dəstəyə ehtiyacı olan Bahadur-şah bu şərtlərlə razı oldu və Diuda fort salmaq üçün portuqallara yardım edəcəyini də öhdəsinə götürdü. 1534-cü ilin sentyabrında müqavilə imzalandı; müqaviləyə görə, Portuqaliya kralı və Kambey sultanı Bahadur-şah hərbi ittifaqa girirdilər, bunun üçün isə Diuda fort salınırdı.

Bundan sonra Nunu da Kunya fonrtun tikintisinə başladı və 1535-ci ilin noyabrında başlayan inşaat işləri 1536-cı ildə başa çatdı. Fortun başında isə 900 nəfərlik qarnizonun komandanı Manuel de Souza yətin edildi (10, 195).

Diu fortunun inşasından sonra portuqallar bu bölgədə özlərini daha rahat hiss etməyə başladılar; hətta Kalikutun və Koçinin yerli hakimləri arasında 1536-cı ildə baş vermiş qarşıdurmaya da müdaxilə etməkdən çəkinmədilər. Elə həmin il Martin Alfonsu de Souza qubernator Nunu da Kunyanın əmri ilə Damanı işğal etdi (9, 307).

Təbii ki, portuqalların bu özbaşınalıqları yerli əhalinin, həmçinin hakimlərin böyük narazılığı ilə qarşılandı. 1537-ci ilin martında Nunu da Kunya Dehliyə gələrək Bahadur-şahla danışıqlar apardı, lakin danışıqlar gedişində sultan öldürüldü. Bahdur-şahın qətlindən sonra Dehli sultanının varislərindən biri Mir Məhəmməd Zaman 5000 nəfər tərəfdarını toplayaraq taxta əyləşdirildi. Portuqaliya hakim dairələri onu sultan kimi tanımaları müqabilində sahilboyu zolağı tələb etdilər (10, 196). Lakin tezliklə Məhəmməd Zaman Moğol imperatoru ilə döyüşdə darmadağın edilərək ona tabe oldu.

1538-ci ildə sultan Süveyşdən Qırmızı dənizə böyük bir eskadra göndərərək Osmanlı türklərinin qüvvələləri ilə birləşdi. Ədənə gələn sultanın donanma başçısı Süleyman-paşa Ədənə gəldi və şəhəri türk sancağına tabe etdi. Beləliklə, Qırmızı dənizə giriş Osmanlı imperiyasının əlinə keçdi (10, 197).

Lakin tezliklə Osmanlı-Hind ittifaqı üçün böyük təhlükə yarandı: Hind okeanında portuqallarla döyüşə girmək əvəzinə Süleyman-paşa əlverişli küləkdən istifadə edərək, Hind okeanını keçdi və Hindistanın qərb sahilinə yaxınlaşdı. 1538-ci ilin sentyabrında Süleyman-paşa 600 yeniçəri Diu adasına çıxardı və buradakı portuqal qalasını mühasirəyə aldı (9, 308). Portuqaliya qarnizonunun başında Antoniu da Silveyra dururdu. Döyüş xeyli gərgin keçdi və türklərin qələbəsi üçün şərait yarandı; lakin gözlənilmədən başlayan qasırğa Süleyman-paşanı öz donanmasını kiçik Mahuva limanına çəkməyə məcbur etdi.

1538-ci il sentyabrın 28-də Diuya geri dönən türklər Fransişku Paşekunun komandanlığı ilə portuqal donanmasının hücumu ilə qarşılaşdı. Osmanlı

qüvvələri çox yaxşı döyüşürdülər və artıq portuqalların müqavimət göstərmələri üçün gücləri qalmamışdı. 1538-ci il oktaybrın 4-də qalaya hücum başladı və bu hücum 20 gün çəkdi (10, 197).

Çətin vəziyyətə düşmüş portuqallara Qoadan yardım göndərildi. Bu yardımın qarşısını ala bilməyən Osmanlı qüvvələri 1538-ci il noyabrın 5-də geri çəkilməli oldular. Süleyman-paşanın donanması Hind okeanını keçərək Qırmızı dənizə geri dönməli oldular. 1538-ci il noyabrın 6-da isə Qarsia de Noronyanın komandanlığı ilə portuqal donanması Qoadan Diuya gəldi (10, 198).

Sultan Süleyman Hind okeanında portuqalların belə cəzasız qalması ilə barışmaq istəmirdi. O, Qırmızı dənizə nəzarət etsə də, İran körfəzində böyük porblemlərlə üzləşmişdi. Hörmüz limanı və Hörmüz körfəzi hələ də portuqalların əlində idi, bu səbəbdən də Bağdad ilə Bəsrə arasında hərbi-dəniz əməliyyatları üçün əlaqəni qurmaq çətinləşmişdi.

Osmanlı imperiyasının İran körfəzi və Hind okeanı bölgəsində vəziyyətini pozitiv tərəfə dəyişən hadisə yalnız 1550-ci ildə baş verdi: belə ki, həmin il Bəsrə sultanı Əl-Qatif və Bussora limanlarını ələ keçirməyi başardı və İran körfəzinin ərəb sahillərinə nəzarəti öz əlinə aldı (4, 128). Sultan Süleymanın nəhəng planı isə İran körfəzinin hər iki sahilinin ələ keçirilməsini nəzərdə tuturdu. Hörmüzün portuqalların əlindən çıxması İranla Ərəbistan arasında dəniz əlaqələrinin bərpası demək olardı. İlk addım kimi sultan Süleyman əl-Qatif limanını möhkəmləndirmək qərarına gəldi. Burada ağır artilleriya saxlayıb limanda böyük sayda gəmini müdafiə etmək olardı.

Lakin bu zaman Hörmüzün əmiri, hansı ki, Səfəvilərin vassallığını saxlamışdı və Osmanlı imperiyasının buraya yaxınlaşmasında maraqlı deyildi, Qoaya xəbər göndərərək portuqallardan yardım istədi. Vitse-kral Alfonsu de Noronya (1551-1554) dərhal şura çağırdı və Hörmüzə 7 qaleon, 12 hərbi qaleon və 1200 nəfərlik ordu göndərilməsi qərara alındı.

1551-ci il aprelin 1-də - kral Alfonsu de Noronyanın qardaşı oğlu Antonio de Noronyanın eskadrası Qoadan çıxdı və Hörmüzə kurs götürdü (10, 199). Aprelin sonu portuqal donanması Hörmüzə gəlib çıxdı. Hörmüzdəki yerli hakimiyyət onlara yardım etdi və 3 min əsgəri portuqal komandanlığının sərəncamına verdi (10, 199).

1551-ci il iyunun sonlarına doğru birləşmiş Portuqaliya-Hörmüz donanması Hörmüzdən çıxdı və əl-Qatifin mühasirəsinə qatıldı. 8 gün ərzində qala atəş altında saxlandı. Əl-Qatifdəki Osmanlı qüvvələri böyük müqavimət göstərsələr də, qalanı itirdilər. Antonio de Noronya əl-Qatifin idarəçiliyni Ras Şərəfəyə verdi (3, 126).

Əl-Qatif kampaniyasından sonra Antonio de Noronya 18 gəmilik eskadra ilə İran körfəzinə daxil oldu və Fəratın yuxarı ətraflarına doğru istiqamət götürərək buradakı türkləri qovmaq qərarına gəldi. Bu arada Portuqaliya kralı don III Juan Venesiyadan və Romadan Osmanlıların yeni hücumu haqqında xəbərdarlıq aldı. 1552-ci ilin mayında Qırmızı dənizə daxil olan gəmilər də bu xəbəri təsdiqlədilər.

1552-ci ilin ortalarında Süveyşdən çıxan 16000 əsgərdən ibarət Osmanlı eskadrasına məşhur admiral Piri Rəis komandanlıq edirdi. Piri bəyin eskadrası 25 gəmidən ibarət idi. Həmin ilin avqustunda türk eskadrası Ərəbistanın cənub sahillərinə çatdı və Məsqəti mühasirəyə aldı (10, 203). Daha iki gəmi Hörmüzə yönəldi. Xəbəri eşidən Hörmüzün komendantı şəhəri təxliyə etmək qərarına gəldi (3, 309).

1552-ci il avqustun sonlarında qalanın müdafiəçilərinə yardım gəldi. 1552-ci il oktyabrın sonlarında isə vitse-kral 80 gəmidən ibarət eskadra ilə Qoadan Hörmüzə gəldi. Piri bəy öz nümayəndəsini Məsqət komendantının yanına göndərərək portuqallardan tabe olmalarını tələb etdi. Məsqətin komendantı Juan de Lijboa Piri Rəisin tələblərilə razılaşdı və qalanı təslim etdi. Məsqət hadisəsi Piri Rəisdə belə bir təsəvvür yaratdı ki, portuqalların qalaları o qədər güclü müdafiə olunmur və onları almaq asan olacaq. Bu səbəbdən, Piri Rəis sultan Süleymanın tələb etdiyi kimi, Bəsrəyə gedib qüvvələrini möhkəmləndirmədi, birbaşa Hörmüzə yollandı. 1552-ci il sentyabrın 17-də Hörmüzün mühasirəsi başlandı (10, 204). Qalanın atəşə tutulması bir neçə gün çəkdi.

Hörmüzün komendantı Alvaru de Noronya öz əsgərlərinə nəyin bahasına olursa olsun, qalanı osmanlı türklərinə təhvil verməməyi tapşırdı: "Mən *Portuqaliyanın Şərqdə ən qiymətli mirvarisi* (kursiv bizimdir – **N.M.**) olan Hörmüzlə risk edə bilmərəm" (10, 207, qeyd 46). Bu səbəbdən, Hörmüzün müdafiəsi üçün portuqallar Qoadan daha böyük yardım tələb etdilər.

Yardım 1552-ci ilin noyabrında gəldi. Daha sonra portuqal admiralı Alfonsu de Noronya Bəsrəyə girişi bağladı. Bundan xəbər tutan Piri Rəis sultanın qəzəbindən qorxaraq böyük bir qənimətlə İstanbula geri döndü. Lakin sultan Süleyman öz admiralını əfv etmədi və Piri Rəis Hörmüzdəki məğlubiyyətə və Bəsrəni itirdiyinə görə edam edildi (5, 189).

Osmanlı imperiyası Qırmızı dəniz və İran körfəzi ilə bağlı planlarından əl çəkməmişdi. Piri Rəisin məğlubiyyətindən sonra sultan Süleyman Qırmızı dənizdə portuqalların əhatəsinə düşmüş türkləri xilas etmək üçün təcrübəli kapitan Ali bin Hüseyni təyin etdi. 7 dekabr 1553-cü ildə Ali bin Hüseyn Bağdada gəldi. Buradan o, kiçik bir gəmidə Bəsrəyə istiqamət götürdü və 1554-cü ilin fevralında bu limana çıxdı (6, 401).

Bu zaman Portuqaliyanın Qoadakı vitse-kralı türklərlə yeni döyüşə böyük hazırlıq görmüşdü. 1554-cü ilin martında vitse-kral Qırmızı dənizə 6 qaleon, 25 fustas və 1500 nəfər əsgərdən ibarət eskadra göndərdi (10, 210). Elə həmin vaxt Bernardina de Souzanın da 5 gəmidən ibarət donanması Bəsrəyə istiqamət götürdü.

Həlledici döyüş 25 avqust 1554-cü ildə baş verdi: elə ilk saatlardan portuqallar nəzarəti öz əllərinə aldılar. Ali bin Hüseyn mühasirəyə düşməmək üçün gəmilərinə açıq dənizə çıxmaq əmri verdi. Osmanlı donanması Daman yaxınlığında lövbər sala bildi. Buradan türk gəmiləri Surat limanına istiqamət götürdülər. Suratda Qucaratın müsəlman hakimləri türk kapitanına Osmanlı hakimiyyəti altına keçmək barədə niyyətlərini bildirdilər. Ali bin Hüseynin

məlumatlarına görə, onun olduğu bütün müsəlman mülklərində eyni təkliflə rastlaşdı (10, 212).

Beləliklə, Hind okeanı bölgəsinin müsəlman hakimləri tərəfindən portuqalların müstəmləkəçi ekspansiyasına qarşı Osmanlı imperiyası ilə briləşmək imkanı yarandı.

1559-cu ildə 1200 nəfərlik türk eskadrası Bəhreyn qalasını mühasirəyə aldı. Bəhreyn şeyxi Morado portuqallardan yardım istədi və yardıma gələn portuqal qüvvələri Osmanlı qüvvələri ilə döyüşdə ağır məğlubiyyətə uğradılar. Bəhreyn qalası Osmanlı hakimiyyətinə keçdi. Bu hadisə böyük nəticələri olan bir hadisə oldu. Osmanlılar tərəfindən Bəhreynin ələ keçirilməsi və Bəsrənin geri qaytarılması ilə Portuqaliyanın dənizlərdəki ağalığı zəiflədi. 1561-ci ildən başlayaraq Hörmüzdən çıxan portuqal gəmiləri hərbi eskortla müşayiət olunmağa məcbur qaldılar (10, 215). Türklərin İran körfəzində artan hərbi gücü Səfəvilərlə Osmanlı imperiyasını da bir-birinə xeyli yaxınlaşdırdı. Səfəvi şahı Təhmasib vəfatınadək (1576-cı il) 1555-ci il Amasya sülhünü iki dəfə yenilədi (2, 261).

XVI əsrin 80-ci illərinə doğru portuqalların bölgədə vəziyyəti xeyli zəiflədi. Ələlxüsus 1581-ci ildə Portuqaliya krallığının İspaniyaya birləşməsilə (7, 170) onun bütün müstəmləkə mülklərinin II Filipin nəzarətinə keçməsi vəziyyəti bir qədər də ağırlaşdırdı.

Hörmüzün portuqal ağalığı altında vəziyyətinə gəlincə, 1513-cü ildən etibarən portuqal müstəmləkəçilərinin tam nəzarətinə keçən Hörmüzün iqtisadi vəziyyəti Avropa müəlliflərinin əsərlərində qüdrətli bir dönəm kimi qiymətləndirilir (3-60). Lakin əvvəlki fəsillərdə də qeyd etdiyimiz kimi, strateji əhəmiyyətli liman və böyük ticarət mərkəzi olan Hörmüz portuqalların gəlişinə qədər artıq çiçəklənən bir şəhər idi və onun yüksəlişi müstəmləkəçilərlə heç bri vəchlə bağlı ola bilməzdi.

XVI əsrin 60-cı illərindən başlayaraq bölgə uğrunda gedən Osmanlı-Portuqaliya müharibələri isə Hörmüzün iqtisadi inkişafına mane olan bir məqam idi. Rusiya tarixçisi A.M.Xazanov yazır ki, "Portuqallar rasist deyildilər və bütün irqlərə eyni gözlə baxırdılar" (10, 215). Lakin Portuqaliyanın Hind okeanı bölgəsinin yerli əhalisinə qarşı tutduğu divan, görünür ki, tarixçinin nəzərindən qaçmışdır.

Hörmüzün əhalisinə qarşı portuqalların "mərhəmətinə" gəlincə, bu, əhalinin onlara müqavimət göstərməməsi və illik xəracı vaxtlı-vaxtında ödəməsi ilə bağlı idi. Yalnız bir faktı qeyd etmək kifayətdir ki, 1581-ci ildə Hörmüzün portuqal xəzinəsinə verdiyi gəlir 51 milyon gümüş reys, buraya sərf olunan xərc isə yalnız 11 milyon olmuşdur, yəni limanın gətirdiyi gəlirin saldosu 40 milyon reys idi (3, 246). Hörmüzün Səfəvilər tərəfindən geri alınması ərəfəsində isə bu rəqəm bir qədər də artaraq 172.000 qızıl serafin olmuşdur (3, 246).

Göründüyü kimi, Hörmüz Portuqaliya üçün əvəzedilməz gəlir mənbəyi idi və bu "mənbəyə" qarşı portuqalların xeyli mərhəmətli siyasəti anlaşılandır.

## ƏDƏBİYYAT


1. Gözəlova Y.H. Orta əsrlərdə Avrasiyanın beynəlxalq ticarət əlaqələri. Bakı: Təhsil, 2011, 296 s.
2. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 2006, 416 s.
3. Martins O. Los hijos de Don Juan I. Buenos Aires: Macau, 1996, 248 p.
4. Morais C.A.de. Cronologia Gerl da India Portuguesa. Lisboa: Difel, 1993, 151 p.
5. Roberts J.M. Dünya Tarihi. I Cilt. Çevireni İ.Erman. İstanbul: KB, 2011, 418 s.
6. Yılmaz Öztuna. İslam Devletleri ve Hanedanları. Cilt 1. Ankara: KB, 1989, 1044 s.
7. История средних веков: в 2 т. Под ред. С.П.Карпова / Учебник.Т.1-2. 2-е изд. М.: МГУ, 2011, т.1, 640 с., т.2, 432 с.
8. Кенигсбергер Г. Европа Раннего Нового времени. М.: Весь мир, 2006, 387 с.
9. Магидович И.П. Очерки по истории географических открытий. Т.1. М.: Учебно-педагогическое изд-во Министерства Просвещения РСФСР, 1967, 288 с.
10. Хазанов А.М. Португалия и мусульманский мир (XV-XV вв.). М.: РАУ - Университет, 2003, 320 с.


## ОСМАНО-ПОРТУГАЛЬСКОЕ СОПЕРНИЧЕСТВО В ИНДИЙСКОМ ОКЕАНЕ В XVI ВЕКЕ


**Н.Б.МАМЕДОВА**


### РЕЗЮМЕ


В XVI веке основными силами, противоборствующими за лидерство в Индийском океане, являлись Османская империя и Португалия. Укрепление Португалии в этом регионе произошло в конце XV века: После завоевания Египта в 1517 году, Османская империя встретила достойного соперника в борьбе за выход в Индийский океан через Красное море.

Османо - португальское соперничество за Индийский океан охватило также государство Сефевидов, империю Моголов и Венецию. Весь XVI век прошел кровавыми войнами и дипломатическим противоборством за этот регион.



**Ключевые слова:** Индийский океан, Ормуз, османы, Португалия, колониализм


## OTTOMAN-PORTUGUESE RIVALRY IN THE INDIAN OCEAN IN THE XVI CENTURY


**N.B.MAMMADOVA**


### RESUME


In the XVI century the major powers opposing for leadership in the Indian Ocean, were the Ottoman Empire and Portugal. Strengthening of Portugal in the region occurred in the late XV century, after the conquest of Egypt in 1517, the Ottoman Empire had met his match in the struggle for access to the Indian Ocean through the Red Sea.

Ottoman - Portuguese competition for the Indian Ocean seized the Safavid, state the Mughal Empire and Venice. All the XVI century was bloody wars and diplomatic confrontation over this region.



**Keywords:** Indian Ocean, Ormuz, Ottoman, Portugal, colonialism